## "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 17-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində, 15-ci maddəsinin üçüncü və beşinci hissələrində və 17-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 6-cı maddəsində və 10-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, *İqtisadiyyat Nazirliyi*, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər *aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları fəaliyyət istiqamətlərinə uyğun olaraq* həyata keçirirlər;[1]

həmin Qanunun 9-cu maddəsinin dördüncü abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini *Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi*, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər;[2]

həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində (birinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini *Azərbaycan*

*Respublikasının İqtisadiyyat Nazirliyi (torpaqların dövriyyəsi və münbitliyinin vəziyyəti hissəsində) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (torpaqların münbitliyinin bərpasına və artırılmasına yönəldilmiş dövlət himayəsi hissəsində) həyata keçirirlər.*[3]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 290

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 dekabr 2001-ci il tarixli 609 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 755**)
2. 23 oktyabr 2003-cü il tarixli 941 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 546**)
3. 15 fevral 2016-cı il tarixli **782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 246)**
4. 28 dekabr 2022-ci il tarixli **1922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il,"Azərbaycan" qəzeti, 29 dekabr 2022-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1432)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 15 fevral 2016-cı il tarixli **782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 246) ilə** 2-ci hissənin dördüncü və beşinci abzaslarda "Dövlət Torpaq və **Xəritəçəkmə Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2022-ci il tarixli **1922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il,"Azərbaycan" qəzeti, 29 dekabr 2022-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1432)** ilə 2-ci hissənin dördüncü abzasda "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**İqtisadiyyat Nazirliyi**" sözləri ilə, "**əlaqəli mərkəzi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri hüdudlarında**" sözləri "**aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları fəaliyyət istiqamətlərinə uyğun olaraq**" sözləri ilə əvəz edilmişdir.

[2] 23 oktyabr 2003-cü il tarixli 941 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 546**) ilə 2-ci bəndin dördüncü və beşinci abzaslarında **"Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi"** sözləri "**Ekologiya və Təbii Sərvətlər Nazirliyi**" sözləri ilə əvəz edilmiş və beşinci abzasdan "**Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi**" sözləri çıxarılmışdır.

23 oktyabr 2003-cü il tarixli 941 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 546**) ilə 2-ci bəndin beşinci abzasından "**Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~həmin Qanunun 9-cu maddəsinin dördüncü abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və XəritəçəkməKomitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi və Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər;~~

28 dekabr 2022-ci il tarixli **1922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il,"Azərbaycan" qəzeti, 29 dekabr 2022-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1432)** ilə 2-ci hissənin beşinci abzasda "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 21 dekabr 2001-ci il tarixli 609 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 755**) ilə 2-ci bəndin 4-cü, 5-ci və 6-cı abzaslarında "**Dövlət Torpaq**" sözlərindən sonra "**və Xəritəçəkmə**" sözləri əlavə edilmişdir.

15 fevral 2016-cı il tarixli **782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 246) ilə** 2-ci hissənin altıncı abzasda "**Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keç**irir" sözləri "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (torpaqların dövriyyəsi və münbitliyinin vəziyyəti hissəsində) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (torpaqların münbitliyinin bərpasına və artırılmasına yönəldilmiş dövlət himayəsi hissəsində) həyata keçirirlər**" sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2022-ci il tarixli **1922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il,"Azərbaycan" qəzeti, 29 dekabr 2022-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1432)** ilə 2-ci hissənin altıncı abzasda "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.